doi.org/10.61764/lasr.2.2024.13-19

**UOT 316**

**Zeynəddin Şabanov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*zeynaddin.shabanov@ gmail.com*
*https://orcid.org 0000–0003–4102–6250*

**Faiq Əliyev**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*faiqaliyev@mail.ru*

# HÜQUQİ DÖVLƏT İDEYASINA FƏRQLİ BAXIŞLAR

***Xülasə***

***Məqalədə hüquqi dövlət ideyasının təkamül xüsusiyyətlərinə*** *nəzər salınıb, bu istiqamətdə tədqiqat aparan elm adamlarının irəli sürdüyü fikirlərə münasibət bildirilib. Qeyd olunur ki, hüquqi dövlət demokratik dəyərlərə əməl olunması, qanuna hörmət edilməsi, insan azadığının və hüquqlarının qorunması, əhalinin sosial müdafiəsinin və rifahının təminatı, ictimai-siyasi, sosiomədəni proseslərin kompleks inkişaf etdiyi, müstəqil ictimai təşkilat və birliklərin mövcud olduğu şəraitdə mümkündür. Bunun üçün* ***ədalətli idarəetmənin mövcud olması*** *əsas şərtdir. Yüksək amallara xidmət edən vətəndaş cəmiyyətinin formalaşması hüquqi dövlətin təməlini möhkəmləndirir.*

***Açar sözlər****: hüquqi dövlət, vətəndaş cəmiyyəti, qanun, azadlıq, demokratiya, inkişaf, tədqiqat*

## Giriş

Müasir dövrdə demokratik inkişaf yolu ilə irəliləyən ölkələrin qarşısında duran əsas məsələ hüquqi dövlətin və vətəndaş cəmiyyətinin bərqərar olması üçün insanların hüquqlarının qorunması, söz və vicdan azadlığına əməl olunması, idarəetmədə ədalətli qərarların qəbul edilməsidir. Hüquqi dövlətin ən əsas məqsədi qanunların aliliyinin qorunması, qanun qarşısında bütün vətəndaşların eyni olmasıdır. Ayrı-seçkilik, zorakılıq, məcburiyyət halları hüquqi dövlətə ziddir.

Hüquqi dövlət ideyasının tarixinin qədim olduğunu qəbul edən tədqiqatçılar bu ideyanın təkamül prosesini bəşəri dəyərlərin, fikir və düşüncənin, həmçinin ictimai-siyasi, sosial-mədəni proseslərin kompleks inkişafının ümumiləşmiş nəticəsi, vahid çərçivəyə düşmüş dövlətçilik xətti kimi üzə çıxdığımnı bildirirlər. Bu xəttdə bir neçə ideoloji istiqamətin - liberalizm, demokratiya, sosial-demokratiyanın birləşdiyi qəbul edilir (1, s.78).

Humanist ideyaların təsiri altında XVIII əsrdə təkan almış dövlət və ictimai quruluşun dəyişilməsi, şəxsiyyət azadlığı, formal hüquq bərabərliyi və s. məsələlərin ön plana çəkilməsi zəruri olaraq “Hüquqi dövlət”i bir nəzəri təlim və praktiki problem kimi alman filosoflarının, xüsusilə də Kant və Hegelin tədqiqat obyektinə çevirmişdi. Hüquqi dövlət haqqında ilk dəfə yazan da məhz Kant olmuşdur. Klassik alman fəlsəfəsinin banisi sayılan Kanta görə, dövlət hüquqi qanunlara tabe olan insan çoxluğunun birliyidir. Hüquq isə ümumi qanunun vasitəsilə birinin digərinə qarşı özbaşınalığını məhdudlaşdıran, deməli, cəmiyyətdə çəkişmələri rədd edən şərtlərin məcmusudur. Kant belə bir müddəanı irəli sürüb müdafiə edirdi: dövlətin təyinatı təkmilləşdirilmiş hüquqdur, onun quruluşunun və rejiminin hüquqa maksimum uyğunluğudur. Məhz bu müddəaya görə, Kant hüquqi dövlətin nəzəri yaradıcılarından biri hesab edilir. O, belə bir zərurəti ciddi-cəhdlə təsdiqləməyə çalışırdı ki, dövlət bütün çoxsahəli

doi.org/10.61764/lasr.2.2024.13-19

fəaliyyətində yalnız və yalnız hüquqa əsaslanmalı, bütün hərəkətlərini hüquqla razılaşdırmalıdır. Əks halda, dövlət vətəndaşların hörmət və inamını itirə bilər. Kant göstərirdi ki, hüquqi dövlətdə azadlıq tənqid azadlığı deməkdir. Kant ümummәcburi qanunlara əsaslanan burjua hüquq qaydalarını feodal hüquqsuzluğuna və özbaşınalığına qarşı qoyaraq, mülkiyyətə sahiblikdən doğan imtiyazların əleyhinə çıxır, xüsusi hüquq münasibətlərində bərabərliyin olmasını tələb edirdi (2, s.25).

**Şəxsi azadlığın tədqiqinin nəzəri əsasları**

Fransız liberalizminin ideoloqu B.Konstan de Rebekk yeni cəmiyyətin yaradılmasında siyasi azadlıqları əsas vasitə, şəxsi azadlıqların təminatçısı bilir: «Şəxsi azadlıq, təkrar edirəm, bizim günlərin əsl azadlığıdır. Siyasi azadlıq onun təminatıdır, deməli, siyasi azadlıq zəruridir. Lakin müasirlərimizdən qədimdə olduğu kimi siyasi azadlıq naminə bütün şəxsi azadlıqlarını qurban verməyi xahiş etmək onları şəxsi azadlıqlardan dərhal məhrum etmək deməkdir; nəticə əldə olunduqdan sonra isə onları siyasi azadlıqdan da məhrum etmək çox asan olacaqdır» (3, s.98). Burada qeyd edə bilərik ki, hüquqi dövlətin baza hüquqlarının strukturu bu mövqelərdə təzahür edir. Mütəfəkkirlərin şəxsi azadlıqlar adlandırdıqları bu gün fundamental hüquqlar (bəzi hüquqi aktlarda təbii hüquqlar kimi verilir) termini çərçivəsində gedir və siyasi, sosial hüquqlarla tamamlanır.

XIX əsrdə Konstan hüquqi dövlətin əsas prinsipi olan vətəndaş və şəxsi azadlığı tədqiq etmiş, hakimiyyət sisteminin isə aşağıdakı bölgüsünü göstərmişdir: "1) kral hakimiyyəti; 2) icra hakimiyyəti; 3) irsən keçən palatanın hakimiyyəti; 4) seçki yolu ilə yaradılan aşağı palatanın hakimiyyəti; 5) məhkəmə hakimiyyəti. O, hüquqi dövlətə daxil olan hakimiyyətin daha geniş bölgüsünü göstərir"(4, s.113). Fransız mütəfəkkiri Benjamen Konstan göstərirdi ki, hüquqi dövlət nəzəriyyəsinə görə dövlət öz vətəndaşlarına münasibətdə öz boynuna könüllü öhdəlik götürür. Xalqın iradəsini ifadə edən qanunlar ən ali hüquqi aktlar kimi çıxış edir.

Demokratiya xalq hakimiyyətinə əsaslandığından onun gerçəkləşməsi ilə insanların hüquq bərabərliyi, siyasi azadlıqlar və hüquqlar, pluralizm kimi dəyərlərin mövcudluğu imkanı yaranır. Bu səbəbdəndir ki, hüquqi dövlət konsepsiyasının formalaşması şəksiz ki, demokratik sistemin qurulması və inkişafı ilə müşayiət olunur. Lakin demokratiya özü də mövcudluğu üçün bir sıra amillərdən asılıdır: 1) Demokratiya nəzəriyyəsi tamamlanmış bir konsepsiya olaraq qala bilməz. Mütləq davamlı olaraq ictimai həyatın inkişafı ilə yeni münasibətlər sistemi və dəyərlər, normalar öyrənilərək zənginləşdirilməlidir. Əks halda həmin ictimai vəziyyətə yaxşı reabilitasiya olmağı bacaran hakimiyyət nəzarətdən kənarda qalar və cəmiyyət üzərində diktaturasını formalaşdırmaq istiqaməti alar; 2) Konstitusiya və qanunlar hakimiyyət və onun hər hansı bir qolunun səlahiyyət və sərhədlərinin artırılmasına qadağa qoyur; 3) Hakimiyyətin qolları arasında tarazlıq saxlanılır; 4) Əsas dəyərlərin (plüralizm, seçib-seçilmə hüququ və s.) pozulmaması istiqamətində konstitusion təminat verilir, qanuni və inzibati öhdəliklər qoyulur; 5) Dövlət quruluşunun hər hansı bir şəkildə dəyişilməsi istiqamətində fəaliyyətə qadağalar qoyur; 6) Konstitusion normaların dəyişilməsinə sistemin dəyişilməsi kimi baxılır (1, s.114).

**Hüquqi dövlət nəzəriyyəsində insanların şəxsi azadlığına münasibət**

Hüquqi dövlət nəzəriyyəsində demokratik rejim qanun qarşısında hər kəsin bərabərliyinin, bütün insan hüquq və azadlıqlarının yeganə təminatçısı hesab edilən siyasi rejimdir. Lakin bir çox mütəfəkkirlər demokratik rejimin insan azadlıqlarının reallaşması üçün nə dərəcədə səmərəli olmasına şübhə edirlər. Məsələn, İ.Berlinin liberal dəyərələrlə demokratiya arasındakı, xüsusən hüquqi dövlətin ən çox həssaslıq göstərdiyi əsas prinsiplərindən olan fərdi azadlığın çoxluğun idarəsi olan demokratiya ilə bağlılığı məsələsinə münasibəti böyük maraq doğurur: «…öz ixtiyarında olmaq istəyi daha çox onu sübut edir ki, sivilizasiya həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin simasında yüksək inkişaf pilləsinə çatmışdır. Şəxsi

həyat və şəxsi münasibətlər sahəsinin müqəddəs şey kimi müzakirə olunması özlüyündə azadlıq konsepsiyasından irəli gəlir… Lakin bu azadlığın tənəzzülü sivilizasiyanın və bütün mənəvi dünyagörüşünün məhvi demək olardı…» (3, s.304). Yəqinliklə qeyd etmək zəruridir ki, hüquqi dövlətin əsas əlamətlərindən biri insan azadlığıdır. Belə ki, insan azad olmasa heç hüququn, qanunların əhəmiyyəti bilinməz. Fərdin sahib olduğu azadlıq özündə həmin fərdin təşəbbüs və toxunulmazlıq sahəsidir və deməli, müəyyən sərhədlərdə reallaşır. Azadlıq dedikdə, hər hansı bir addım atmaq, təşəbbüs göstərmək, qərar vermək kimi elementlər nəzərdə tutulur. Azadlıq bütün hüquqların mənbəyidir, hüquqlar isə azadlığın təmin olunması, daha doğrusu reallaşması üçün hüquq tərəfindən fərdə verilmiş, "sanksiyalaşdırılmış" səlahiyyətdir. Azadlıq özü-özlüyündə bir hüquq olsa da, bütün hüquqlar azadlıq demək deyildir. Hüquq, əsas etibarı ilə, azadlığın təminatı və ifadə vasitəsidir. İnsan öz azadlığını reallaşdırarkən, digər insanların da azadlığını nəzərə almalıdır. Əks təqdirdə cəmiyyətdə azadlıqlar "toqquşması" yarana bilər ki, bu da mahiyyət etibarı ilə azadlığın düzgün dərk edilməsi nəticəsində meydana çıxmış olur. Belə ki, cəmiyyətdə insanların azadlıqlarına qarşılıqlı hörmət etməlidirlər. Yalnız azad insanların bərabərliyi şəraitində bərabər hüquqlara malik olmaq, yəni, qanun qarşısında hamının bərabər tutulması mümkündür.

Hüquqi dövlət anlayışı həm iqtisadi liberallaşmanın sərt bir şəkil aldığı, iqtisadi inhisarlaşma getmiş, lakin hüququn ali olduğu, hüquq və azadlıqların qorunduğu dövlətlərə aid edildiyi kimi, sosiallaşma getmiş, iqtisadi liberallaşmaya müəyyən sərhədlər qoyumuş, yenə də hüquq və azadlıqların müdafiə olunduğu dövlətlər də daxil olunur.

Müasir dövr konsepsiyalarında hüquqi dövlət nəzəriyyəsinə pozitivist və liberal-demokrat münasibətləri ilə bərabər neotomist yanaşma da mövcuddur. Bu nəzəriyyənin tərəfdarları insanın ilahidən ona verilən təbii hüquqlarının varlığını qəbul edir və dövlət–vətəndaş münasibətləri problemində hüququn birmənalı qavranılmasına qarşı çıxırlar. Onlara görə, insan hüquqları üç istiqamətə ayrılır: fundamental hüquq, sosial hüquq və siyasi hüquq. Bunların hər biri ilə bağlı dövlətlə vətəndaş arasındakı sərhəd fərqlidir və dövlət qarşısında durmalı olan tələblər müxtəlifdir.

Fundamental hüquqlar kimi insanın şəxsi azadlığı ilə bağlı hüquqlar daxildir və beynəlxalq təşkilatlar təfəfindən də bunlar insanın ən təbii, fundamental haqları kimi toxunulmaz hesab olunur. Hər hansı bir dövlətin bəşəriyyət tərəfindən qəbul olunması, mütərəqqiliyi və konstitusion mənşəyə malik olması vətəndaşının fundamental hüquqlarının təmin olunmasını şərtləndirir. Bu hüquqların müdafiəsi konstitusion dövlətin ilkin vəzifəsidir. Siyasi sisteminin spesifikasından, mövcud siyasi şəraitdən, dövlətin vətəndaş üzərində hakimiyyətinin ölçüsündən və s. asılı olmayaraq həmin hüquqları müdafiə etmək dövlətin məsuliyyətinə daxildir.

**Hüquqi dövlətin əsas prinsipləri**

Hüquqi dövlətin əsas səciyyəvi cəhəti kimi neotomistlər vətəndaşların fundamental hüquqlarının müdafiəsinin konkret situasiyada dövlət tərəfindən nə dərəcədə təmin olunmasını irəli sürürlər. Vətəndaş bu hüquqların zəmanətini necə alır və öz hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı dövlətə nə dərəcədə etibar edir?

Bu məsələdə vətəndaşların aktivliyi və öz hüquqları ilə bağlı dövlət, hakimiyyət orqanları qarşısında tələb qaldırmaq imkanları və vərdişləri, hüquqlarının təminatı ilə bağlı proseslərdə nəzarətçi kimi göstərdikləri tələbkarlıq və s. tədqiqatçıların müşahidə etdikləri əsas göstərcilərdir. Qəbul olunmuş yanaşmaya görə, məhz hüquqi dövlətdə, dövlətin vətəndaş üzərində məsuliyyətini yerinə yetirdiyi, vətəndaşların azadlığının mövcud olduğu, onların bu azadlığa və hüquqlarının təminatına vərdiş etdiyi bir cəmiyyətdə insanlar aktivlik sərgiləyirlər.

Cəmiyyətdə vətəndaşlar dövlət qarşısında tələblər qoyur, hakimiyyət orqanlarından, məmurlardan məhkəmələrə şikayət edirlər. Bu halların mövcudluğu insanların fundamental

doi.org/10.61764/lasr.2.2024.13-19

hüquqları ilə bağlı ciddi problemlərin olmadığı rəyini yaradır. Bir sözlə, fundamental hüquqlarla bağlı vətəndaş tam üstünlük situasiyasındadır və burada dövlət istiqamətində hər hansı bir şəkildə güzəştə yol verilmir. Dövlət yalnız bu hüquqların qorunması məsuliyyətini daşıyır (1, 69).

Hüquqi dövlətin mənşəyi onun məzmununu təşkil edən ideyalar və konsepsiyaların yaranması, inkişafı və reallaşması prosesindən keçir. Rusiyalı tədqiqatçı M.N.Marçenko bu prosesi belə təqdim edir: "a) dövlətin təşəkkül tapmasının və inkişafının erkən mərhələlərində meydana gəlmiş və sonrakı dövrlərdə analoji ideyaların yaranmasına təkan vermiş tarixən ilk humanist ideyalar; b) XIX əsrdə təşəkkül tapmış və sonradan bir növ konstitusion prinsip kimi qəbul olunmağa başlamış hüquqi dövlət konsepsiyası; c) hüquqi dövlət ideyasının reallaşması, onun əsas tələblərinin həyata keçməsi"(5, c.183).

Əminliklə qeyd edə bilərik ki, hüquqi dövlət konsepsiyasının formalaşmasında sadəcə mütərəqqi nəzəriyyə və təcrübələrin yox, həm də mürtəce cərəyan və tarixi proseslərin böyük rolu olmuşdur. Biz liberal, demokratik dəyərlərin hüquqi dövlət nəzəriyyəsindəki yerindən danışdıq. Buraya bərabərlik kateqoriyası üzərində duran sosial dəyərlər də aiddir. Lakin XX əsrdə patriarxal-demokratiyanın bir istiqaməti olan marksizm cərəyanının hüquqi dövlət ideyasının sosial elementlərinin formalaşmasında da böyük təsiri olmuşdur. Kommunizm xofu, onun kapitalist cəmiyyətində təbliği təhlükələri həmin cəmiyyətlərdə sosiallaşma istiqamətində xeyli işlərin görülməsinə tələb yaratdı. Burada azadlıqların inhisarlaşması ilə nəticələnməməsi və istehsal münasibətlərində aşağı təbəqənin hüquqlarının pozulmaması, orta təbəqənin inkişafı üçün onun sosiallaşma ilə sərhədlənməsi nəzərdə tutulurdu. Həmin isiqamət elmi müstəvidə dahi mütəfəkkir K.Popper tərəfindən qoyuldu. Lakin liberal dəyərlərin sərhədlənməsi problemi hələ hüquqi dövlət konsepsiyasının ilkin inkişaf dövründə mühafizəkarlar tərəfindən qoyulmuşdur.

Britaniya mühafizəkarlığının banisi E.Börk: «Dövlət təbii hüquqların müdafiəsi üçün yaradılmır. Dövlət – bu insan müdrikliyinin insanın ehtiyaclarını ödəmək üçün yaradılmışdır. İnsanların haqqı var ki, onların ehtiyacları bu müdrikliklə ödənilsin. Bu ehtiyacların içərisində mülki cəmiyyət üçün çox vacib olan bir ehtiyac - insan ehtirasının kifayət qədər məhdudlaşdırılması zərurəti xüsusi olaraq nəzərə alınmalıdır. Cəmiyyət yalnız tək adamın ehtiraslarının cilovlanması deyil, insan kütlələrinin, qrup larının meyillərinin məhdudlaşdırılmasını, onların iradəsinə nəzarət olunmasını, onların hamısının ehtiraslarının asılı vəziyyətə salınmasını tələb edir" yazırdı ( 3, s.184).

Hüquqi dövlətin prinsipləri çərçivəsinə yalnız azadlıq yox, həm də sosial ədalət və bərabərlik elementləri daxildir. Bu səbəbdən, demokratiyanın iki baza kateqoriyası – azadlıq və bərabərlik arasında əlaqə yaratmaq, onları bir yerə sığdırmaq hüquqi dövlət qurmaq məqsədi qoyanların əsas qayələrindən birinə çevrilir. Bu problemlə bağlı əhəmiyyətli tədqiqatı Rolz aparmışdır (6, c.103). Rolzun nəzəriyyəsinin əsas qayəsi azadlıqda bərabərlik prinsipinin gerçəkləşdirilməsidir. Rolzun «Ədalət nəzəriyyəsi» sonradan belə bir tendensiya yaratdı ki, dövlət vətəndaşların hüquq və azadlıqlarını möhkəmləndirməlidir, amma eyni zamanda sosial-iqtisadi bərabərliyin inkişafını da təmin etməlidir. Rolzun Qərb elmində etdiyi dönüşə qədər orada belə bir baxış var idi ki, sosial bərabərlik tələbi sosializm konsepsiyasına xas bir müddəadır. Lakin sosialist blokunun kapitalist ölkələrində aşağı təbəqələr arasında apardığı təbliğat işi həmin dövlətlərdə sosial siyasətə ciddi yanaşaraq sosial bərabərlik ideyasının elementlərini liberal konsepsiyaya daxil etmək, ona uyğunlaşdırmaq zərurəti yaratdı (7, s.209). Bu işdə əsas güc Rolzun çiyninə düşdü.

Lakin sosial-iqtisadi bərabərlik istiqamətində görülən işlər nəticədə Qərbdə orta təbəqənin formalaşması və böyüməsi üçün əhəmiyyətli rol oynadı. Həmin azad, güclü, təşkilatlanma qabiliyyətinə malik, sosial müdafiəsini təmin etmiş təbəqə isə vətəndaş cəmiyyətinin sosial bazasıdır.

doi.org/10.61764/lasr.2.2024.13-19

**Azərbaycan mütəfəkkirlərinin hüquqi dövlət nöqteyi nəzərindən baxışları**

Azərbaycanın müasir dövr ictimai fikir tarixində çox mühüm yeri Mirzə Fətəli Axundov tutur. Axundovun dünyagörüşünün və siyasi-hüquqi mövqeyinin formalaşmasında Avropa mütəfəkkirlərinin, xüsusən də hüquqi dövlət ideyasının əsaslarını yaratmış İntibah dövrü alimlərinin nəzəriyyələri böyük rol oynamışdır. Bu səbəbdəndir ki, Axundov təbii hüquq nəzəriyyəsinin tərəfdarı kimi çıxış edir. O, insanın azadlığını, firavan yaşamaq, müxtəlif tələbatlarını reallaşdırmaq istəklərini təbii haqqı hesab edir və Azərbaycanın o zamankı mövcud siyasi şəraitində bunu gerçəkləşdirməyi mümkün hesab etmir. Axundovun siyasi görüşləri sələflərindən və müasirlərindən radikallığı ilə fərqlənir. Ona görə, heç bir mürtəce hakimiyyət insanlara hüquq və azadlıqlar verməz və islahatlarla bunu reallaşdırmaq istəyini gerçəkləşdirmək mümkün deyil. Yalnız inqilab yolu ilə dəyişiklik etmək olar.

Hüquqi dövlət ideyasının həm nəzəri, həm də təcrübi elementlərinə biz sistemləşdirilmiş və ciddi şəkildə Azərbaycan Demokratik Respublikası dövründə rast gəlirik. Şərqdə ilk dəfə qurulmuş bir demokratik respublikanın nəzəri əsasları o dövrdə mütərəqqiliyi və insan hüquq və azadlıqlarının genişlyi ilə hətta demokratiyanın və hüquqi dövlət ideyasının beşiyi hesab olunan Qərb dövlətlərindən seçilirdi. O dövrdə Azərbaycan ictimai müstəvisində M.Ə.Rəsulzadə və tərəfdarlarının demokratik ideyaları N.Nərimanovun sosial-demokratik ideyaları ilə birləşir, vəhdətləşirdi. Fikrimizcə, bu iki böyük dahiyə münasibət də onları qütbləşdirmək istiqamətində qurulmamalı, məhz bu vəhdətdə baxılmalıdır. Onların hər ikisinin ideyaları, fəaliyyəti və xidməti sayəsində Azərbaycanda həm Qərb, həm də Şərq üçün örnək olacaq bir dövlət və cəmiyyət konsepsiyasının əsası qoyulurdu. Məsələn, milliyyətindən, irqindən, hətta cinsindən asılı olmayaraq hər kəsə seçki hüququ verilməsi halı o zaman həm ABŞ-da, həm də Fransada (bu iki dövlət hüquqi və demokratik dövlətin vətəni hesab olunur) rast gəlinməsi hələ uzun dövr tələb edəcəkdir (1, s.44).

Sosial hərəkatların ictimai-siyasi proseslərə nəzarət fəaliyyətinin genişlənməsi bürokratik aparatın dövlət əhəmiyyətli qərarlar verilməsində sırf texniki, professionalların rəyinə əsaslanan nəticələrə gəlməsi tendensiyasının qarşısını alır. Çünki bu tip tendensiyalar normativ məqsədləri nəzərə almır. Bu gün vətəndaş cəmiyyətinin formalaşmadığı dövlətlərdə, hətta hüquqi dövlətlərdə mədəni-mənəvi dəyərlərdən kənarda qalan tamamən rasional prinsiplərdən çıxış edərək dövləti fəaliyyətin qurulmasına rast gəlinir. Artıq bir çox müəlliflər həmin amili vətəndaş cəmiyyətinin formalaşmaması və ya inkişaf etməməsi ilə, müasir hüquqi dövlət konsepsiyasının yerinə yetirilməməsi ilə bağlayırlar. Həmin sırada Habermas da var. Habermas siyasi həyatda müasir ictimai hərəkatların rolunun dərk olunmasında yeni yanaşma irəli sürür. Onun fikrincə, dövlət və korporativ institutlar gündəlik həyatın əhəmiyyətli mədəni prosesləri kontekstindən kənarda qalan rasional fəaliyyət növü formalaşdırırlar. Habermasın bu nəzəri sistemi əsasında vətəndaş cəmiyyəti konsepsiyası yaranmışdır. Bu nəzəriyyə cəmiyyətin sosial çevrələrində siyasi problemlərin müzakirəsini təmin edir.

Qərbin müasir dövrdə siyasi elmdə qəbul etdiyi və praktikada diqqət yetirdiyi, hüquq və azadlıqların gerçəkləşməsinin təminatçısı hesab etdiyi bir sıra ortaq tələblər var. Həmin tələblər müəyyən mənada bugünkü hüquqi dövlət anlayışının ümumi təsəvvürünü də yaradır:

1) Qəbul olunan qanun və normativ aktlar konstitusiyada qoyulmuş müddəalara uyğun olmalıdır. Boşluqlar hüquqların azaldılmasına yox, genişləndirilməsinə xidmət etməlidir;

2) İdarəetmə yalnız qanunlarla yox, ümumilikdə hüquq norma və qaydaları ilə hüquqi dövlət meyarlarına uyğun olmalıdır;

3) Təməl hüquq və azadlıqların qorunması hüquqi dövlət anlayışı ilə demokratiya anlayışı arasındakı bağı yaradan meyardır. Ona görə də insanların fundamental hüquq və azadlıqları təcrübədə gerçəkləşə bilən və demokratik rejimin ruhuna uyğun olan təminatçı güclərə əsaslanmalıdır;

4) Hüquq güvənliyi anlayışı dövlətin fəaliyyətinin konstitusiyada qoyulmuş və ictimai rəydə qəbul olunmuş əsas meyar və müddəalara uyğun qurulmalıdır və əvvəldən ictimaiyyətə uyğun bir şəkildə çatdırılmalıdır və s.

Yuxarıda üzərində dayandığımız məsələlər elə təsəvvür yarada bilər ki, hüquqi dövlət anlayışı, onun strukturuna, məzmununa daxil olan müddəalar, prinsiplər üzərində mübahisə yalnız Avropa və Amerika arealında gedir. Halbuki, heç də belə deyildir. Tam tərsinə. Qərbdə bu konsepsiyanın gerçəkləşməsi əsaslı şəkildə ortaq keyfiyyətlərə malikdir. Onun əsas prinsiplərinin deyə bilərik ki, hamısı bütün Qərb məkanında birmənalı şəkildə reallaşmasını görmək mümkündür. Qərb sivilizasiyası isə nə qədər inkişaf etmiş və güclü olsa da bəşəriyyətin azlıqda olan hissəsidir. Bu konsepsiyanın tətbiqi ilə bağlı müxtəliflik daha çox yerdə qalan çoxluqda rast gəlinir. Və deyə bilərik ki, müxtəliflik son dərəcə rəngarəngdir.

Hüquqi dövlət konsepsiyasının təcrübədə tətbiqi, gerçəkləşməsi məram, vasitə və qaydaları nə qədər müxtəlifdirsə, deməli, anlayış üzərində mübahisələr də o qədər böyükdür (1, s.107)

Son yarım əsrdə hüquqi dövlət konsepsiyası vətəndaş cəmiyyəti nəzəriyyəsi ilə vəhdətdə inkişaf edir. Bu gün hüquqi dövlət dedikdə vətəndaş cəmiyyətinin formalaşmış olduğu, dövlətin hüdudlarının onun vasitəsilə xeyli kiçilmiş olduğu bir dövlətçilik mexanizmi anlaşılır. Bu da həmin konsepsiyanın sosial dəyərlərlə inkişafı ilə bağlıdır. Azadlıqlar və onların sərhədlənməsi məsələləri uzun bir dövrdə ciddi mübahisə mövzusu, təcrübə obyekti olmuşdur (8, s.95). Liberal-demokratiya ilə sosial-demokratiya arasındakı mübarizə həm nəzəri, həm də praktik sahədə inkişafa təkan verir, yenilikləri diktə edir, ideyaların fomalaşmasını stimullaşdırır.

**Nəticə**

Hüquqi dövlətdə yaşamaq və fəaliyyət göstərmək hər bir vətəndaşın qazancı və arzusudur. Belə ki, hüquqi dövlətdə hər bir vətəndaşın mülkiyyəti, konstitusion hüquq və azadlıqları qorunur. Belə dövlətdə heç kimin mülkiyyəti zorla müsadirə edilə bilməz, heç bir şəxs hüquqlarından məhrum edilə bilməz, hamı qanun qarşısında bərabərdir. Əgər hər hansı bir şəxs bu hüquqlarının pozulduğunu, ədalətsizliyə məruz qaldığını düşünürsə, bu halda məhkəmə qaydasında pozulmuş hüquqlarını bərpa edə bilər. Hər bir vətəndaş hüquqi dövlətin qaydalarına uyğun olaraq dövlətdən ədalət tələb edə bilər.

## ƏDƏBİYYAT


1. Nəsibov Y. Hüquqi dövlət ideyası. Bakı, Təknur, 2016
2. İsmayilov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. Bakı, Qanun, 1999
3. İsmayılov D.Y. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, Adiloğlu, 2015
4. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, Az.TU-nun nəşriyyatı, 2012
5. Марченко М.Н., Мачин И.Ф. История политических и правовых учений. Москва: ТК "Велби, Изд.во "Проспект", 2007
6. Ролз Дж.Теория справедливости. Новосибирск: Изд-во Новосибирского ун-та,1995
7. Hayek F.A. Hüquq, qanunvericilik və azadlıq: 3cilddə. I c. Qaydalar və nizam. Bakı, Qanun, 2002
8. Quliyev R. Hüquqi dövlət: sosial-fəlsəfi təhlil. Bakı,Təhsil, 2018

doi.org/10.61764/lasr.2.2024.13-19

**Зейнаддин Шабанов**
**Фаиг Алиев**

## РАЗНЫЕ ВЗГЛЯДЫ ИДЕИ ПРАВОВОГО ГОСУДАРСТВА

***Резюме***

В статье рассмотрены особенности эволюции идеи правового государства, прокомментированы мысли ученых, проводящих исследования в данном направлении. Отмечается, что правовое государство возможно в условиях, когда соблюдаются демократические ценности, уважается право, охраняются права и свободы человека, обеспечивается социальная защита и благосостояние населения, комплексно развиваются политико-политические, социокультурные процессы, существуют независимые общественные организации и объединения. При этом главным условием является наличие справедливого управления. Формирование гражданского общества, служащего высоким идеям, укрепляет основы правового государства.

***Ключевые слова:*** *правовое государство, гражданское общество, закон, свобода, демократия, развитие, исследование*

**Zeynaddin Shabanov**
**Faiq Aliyev**

## DIFFERENT VIEWS OF THE LEGAL STATE IDEA

***Summary***

The evolutionary characteristics of the legal state idea have been reviewed in the article and the opinions put forward by scientists who conducting research in this direction have been commented. It is mentioned that, a legal state is possible in the conditions when democratic values are adhered, the law is respected, human freedom and rights are protected, social protection and welfare of the people is guaranteed, public-political and socio-cultural processes are developed in a complex way and independent public organizations and unions exist. The existence of fair management is a principal condition for it. The formation of a civil society that serving to high purposes strengthens the foundation of the legal state.

***Keywords**: legal state, civil society, law, freedom, democracy, development, research*